

# Tarixi zəfərlə gerçəkləşən müqəddəs arzu

***Ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Qarabağın düşmən əsarətindən xilas olunması idi. Elə buna görə də dahi öndər xalqın təkidi ilə yenidən ölkə rəhbərliyinə qayıdışından sonra torpaqlarımızın qəsbkarlardan təmizlənməsi üçün qətiyyətli addımlar atdı, Azərbaycan Respublikasının rəhbəri kimi bütün beynəlxalq tədbirlərdəki çıxışlarında Qarabağın xalqımıza məxsus olmasını tarixi faktlarla beynəlxalq ictimaiyyətə çatdırdı. Prezident Heydər Əliyev Ermənistanın işğalçı siyasətini kəskin tənqid edərək, dünya güclərini onu bu yoldan çəkindirməyə çağırdı. Eyni zamanda, problemin sülh, danışıqlar vasitəsi ilə həllinə üstünlük verdi, düşməni dialoqla tarixi ədaləti bərpa etməyin faydalılığına inandırmağa çalışdı.***

Bütün bunlara baxmayaraq, erməni tərəfi tutduğu yoldan çəkinmədi, müxtəlif üsullarla işğalı möhkəmləndirməyə davam etdi. Belə təqdirdə dahi şəxsiyyət siyasi mübarizəni beynəlxalq müstəvidə daha da genişləndirdi. Nəticədə Heydər Əliyev müdrik siyasəti ilə Lissabon sammitində ölkəmizin ərazi bütövlüyünün beynəlxalq ictimaiyyət tərəfindən bir daha yekdilliklə tanınmasına və Birləşmiş Millətlər Təşkilatı tərəfindən ərazilərimizin işğaldan azad edilməsi haqqındakı məlum qətnamələrin yerinə yetirilməsinin dəstəklənməsinə nail oldu.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın üzləşdiyi tarixi ədalətsizliyi aradan qaldırmaq üçün siyasi mübarizə ilə bərabər, həm də müstəqil Azərbaycanın ordu quruculuğunun əsaslarını yaratmağı da daim diqqət mərkəzində saxladı. Ordumuzun peşəkar kadrlarla, yeni nəsil mütəxəssislərlə, müasir texnika ilə təmin edilməsi istiqamətində önəmli tədbirlər gördü. Bunun üçün, ilk növbədə, respublika iqtisadiyyatını gücləndirməyin, bu sahədə inqilabi islahatların aparılmasının zəruriliyini dəfələrlə vurğulayaraq, sözügedən istiqamətdə əməli addımlar atdı. İstər siyasi, istərsə də iqtisadi-hərbi yöndə müəyyən işlərin vaxt baxımından səmərəliliyini gerçəkləşdirmək məqsədilə atəşkəs sazişini reallaşdırdı.

Ümummilli lider Prezident seçkisi ərəfəsində xalqımıza tarixi müraciətində cənab İlham Əliyevin namizədliyini dəstəkləməyi tövsiyə edərkən, Qarabağ münaqişəsi kimi müqəddəs bir istəyin gələcək dövlət başçımız tərəfindən uğurla yerinə yetiriləcəyinə inanırdı, belə bir çətin vəzifənin reallaşacağını irəlicədən görürdü. Ümumiyyətlə, dahi şəxsiyyət hələ o zaman tək Qarabağ probleminin deyil, digər taleyüklü məsələlərin də öz həllini tapacağına əmin idi.

Azərbaycan Prezidenti kimi andiçmə mərasimində "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam", – deyə bəyan edən cənab İlham Əliyev ötən illər ərzində dahi rəhbərin ölkəmizin inkişafı, xalqın rifahı ilə bağlı bütün arzularını reallığa çevirdi, möhkəm təməllər üzərində formalaşdırdığı dövlətimizi yüksək inkişaf səviyyəsinə qaldırdı, respublikamızın beynəlxalq nüfuzunu gücləndirdi.

Prezident İlham Əliyev Vətən müharibəsi başlanana kimi, ölkənin sosial-iqtisadi inkişafı ilə bərabər, Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsini də bir an olsa belə diqqətdən kənar saxlamadı. Mötəbər kürsülərdən xalqımızın üzləşdiyi tarixi ədalətsizlik, erməni faşizminin torpaqlarımızın 20 faizinin işğal altında saxlaması barədə beynəlxalq aləmi məlumatlandırdı, bu yöndə xarici siyasi fəaliyyəti gücləndirdi. Erməni lobbisinin informasiya blokadasını dağıdıb Qarabağ həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırdı. Apardığı müdrik, uzaqgörən siyasətlə xalq-iqtidar birliyini möhkəmləndirdi, silahlı qüvvələrimizi respublikamızın iqtisadi gücündən bəhrələnərək, həm də dünyanın kifayət qədər möhkəm ordularından birinə çevirdi. Dövlətimizin başçısı bu zaman hərbçilərimizin döyüş hazırlığının gücləndirilməsi ilə bağlı tədbirlərin gerçəkləşdirilməsi, irimiqyaslı təlimlərin keçirilməsi, ordunun müasir silahlarla silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsini diqqət mərkəzində saxladı.

Bax, bütün bunlardan sonra ulu öndər Heydər Əliyevin ən müqəddəs vəsiyyətini yerinə yetirmək zamanı gəldi. Bu, 2020-ci il sentyabrın 27-də baş verdi. Həmin gün Ermənistan ordusu təxribat törədərək, ölkəmizə hücuma keçdi. Azərbaycan Ordusu 44 gün ərzində döyüş meydanında işğalçının uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemlərini və hərbi hava qüvvələrini sıradan çıxartdı. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdi. Bununla da düşmənin öz silahlı birləşmələrinin güc-qüdrəti haqqında yaydığı məlumatların həqiqətdən tamamilə uzaq olduğunu göstərdi.

Yeri gəlmişkən, Vətən müharibəsinin ilk günlərindən etibarən Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən hərbi birləşmələri geri çəkilərək döyüş mövqelərini qoyub qaçır, uduzduğunu anladığına görə, təxribatlara əl atır, mülki vətəndaşlarımızı atəşə tutmaqla, infrastrukturumuzu dağıtmaqla qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini bir daha təsdiqləyirdi. BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini yerinə yetirməyən qəsbkar mülki insanları atəşə məruz qoymaqla yeni-yeni cinayətlər törədirdi. Lakin Ermənistan Azərbaycan Ordusunun tezliklə dünya hərb tarixinə yeni şanlı səhifələr yazaraq, onun layiqli cavabını verəcəyini və hər cinayətinə, vəhşiliyinə görə cəzalandıracağını anlamırdı.

İşğalçı dərk etməli idi ki, o, uzun illər ərzində ordu yaratmaq əvəzinə işğal altında saxladığı Qarabağı və ətraf ərazilərimizi xarabalığa çevirib, təbii sərvətlərimizi talayıb, Ermənistanda tüğyan edən korrupsiya və rüşvətxorluğu "çiçəkləndirib". Azərbaycan isə, əksinə, hərbi quruculuğu prioritet istiqamətlərdən biri kimi diqqət mərkəzində saxlayıb. Ölkəmizin iqtisadi potensialını silahlı qüvvələrimizin ən yüksək standartlara cavab verməsinə yönəldilib.

İkinci Qarabağ müharibəsinin ən şərəfli səhifələrindən biri Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün oldu. Həmin gün – 2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev əvvəlcə Fəxri xiyabana getdi. Burada dahi şəxsiyyətin abidəsi önündə böyük sayğı və ehtiramla onun ruhu qarşısında baş əydi. Sonra Şəhidlər xiyabanını ziyarət edərək Qarabağın incisi və tacı sayılan Şuşa şəhərinin azadlığı müjdəsini xalqımıza və bütün dünya azərbaycanlılarına yetirdi. Eyni zamanda, bu müqəddəs savaşda qazanılan möhtəşəm zəfərlə adı milli dövlətçilik tariximizə əbədi yazılan cənab İlham Əliyev ata vəsiyyətini uğurla yerinə yetirdiyini bəyan etdi və kövrək duyğularını soydaşlarımızla bölüşdü. Prezident İlham Əliyev çıxışında dedi: "Mən bu gün eyni zamanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Beləliklə, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla 30 ildən artıq davam edən münaqişəyə son qoyuldu. Bununla da erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdikləri etnik təmizləmə və işğalçılıq siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirildi və tarixi ədalət bərpa olundu.

Vətən müharibəsində əldə edilən möhtəşəm zəfər Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəsinin, böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsinə çevrildi.

Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun düşməndən təmizlənməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtardı və onu bütün dünyada qalib xalq kimi tanıtdı.

Azərbaycan bu gün yerləşdiyi bölgənin siyasi, iqtisadi, hərbi, humanitar mənzərəsini dəyişməyə qadir olduğunu, bundan sonra heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə nümayiş etdirdi. Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin möhtəşəm zəfəri isə təkcə bizim ölkəmizin deyil, həm də bütün Cənubi Qafqaz bölgəsinin əmin-amanlığı və inkişafı üçün yeni imkanlar yaratdı. Bu imkanların reallaşması üçün isə Azərbaycan Respublikası Ermənistan ilə beynəlxalq hüquq prinsiplərinə və normalarına uyğun olaraq, bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və bunlara hörmət edilməsi əsasında normal qonşuluq münasibətləri qurmağa hazırdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***